# Vətən müharibəsi şəhidlərinin ailə üzvləri ilə görüş



Qəbələ Mədəniyyət Mərkəzində Qəbələ Rayon İcra Hakimiyyəti başçısı və hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin rəhbərləri ilə Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin görüşü keçirilmişdir.

Tədbirdə valideynlər dinlənilmiş, mövcud problemlər müzakirə edilmiş və qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll edilmiş, digərlərinin həlli üçün aidiyyəti üzrə tapşırıqlar verilmişdir. Sonda Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Vətən müharibəsi şəhidlərinin medalları ailə üzvlərinə təqdim olunmuşdur.



# Vətən müharibəsi qaziləri ilə görüş

Qəbələ Dövlət Peşə Tədris Mərkəzində “Mərhəmət” Kimsəsizlərə Yardım İctimai Birliyi tərəfindən “Vətən müharibəsində qanı bahasına mübarizə aparmış qazilərə dəstək” layihəsi çərçivəsində tədbir keçirilmişdir. Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi şəxsin Qəbələ Rayon filialının, Dövlət Məşğulluq Agentliyinin 11 saylı Regional Ərazi Məşğulluq Mərkəzinin Qəbələ rayon şöbəsinin, Qəbələ Rayon Qarabağ müharibəsi əlilləri və veteranları şurasının, Qızıl Aypara Cəmiyyətinin Qəbələ Rayon Şöbəsinin nümayəndələrinin və qazilərin iştirak etdiyi tədbirdə çıxış edənlər Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qələbəsi və postmüharibə dövründə dövlət tərəfindən görülən işlər və Qəbələdə şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına göstərilən qayğıdan bəhs etmişlər. Tədbir sual-cavab şəklində davam etdirilmişdir. Sonda Vətən müharibəsi qaziləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Zərifə Əliyeva ömrü

Elə şəxsiyyətlər var ki, onların ömür yolu haqqında söhbət açarkən istər-istəməz hansısa tarixi dövrün müəyyən ənənələrinin formalaşması prosesinin də iştirakçısına çevrilmiş olursan. Hər bir millət üçün fəxr olunası haldır ki, mənsub olduğu millətin tarixində unudulmaz şəxslər yaşayıb, yaradıb. Elə şəxslər ki, onların xalqı qarşısındakı xidmətləri əvəzolunmazdır. Belə insanlar həmin zirvəni qeyri-adi əməksevərliyi, təmənnasız xeyirxahlığı, fitri istedad, nadir bilik və qabiliyyətləri hesabına fəth edirlər. Məhz belə insanlardan biri də humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyevadır. Azərbaycan tibb elmində silinməz izlər qoymuş Zərifə xanım Əliyevanı xatırlayanda göz önündə mənəvi kamilliyin ən uca zirvəsində dayanan nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görünür.

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva. Onun öz ailəsi üçün də necə əvəzsiz dəyər kəsb etdiyini həyat yoldaşı - Ulu Öndər Heydər Əliyev özü də dəfələrlə söyləyib. “Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar”.



Zərifə Əliyeva 28 aprel 1923-cü ildə həkim Əziz Əliyev və Leyla Əliyevanın ailəsində dünyaya göz açmışdır. Həkimlər Tamerlan Əliyev, Cəmil Əliyevin və musiqiçi Gülarə Əliyevanın bacısı olan Zərifə xanım 1932-1942-ci illərdə orta məktəbdə təhsil almışdır. 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, 1982-1985-ci illərdə görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasında az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparmışdır.

1954-cü ildə Heydər Əliyev ilə ailə qurmuş, 1955-ci il 18 oktyabr Sevil Əliyeva, 1961-ci il 24 dekabr İlham Əliyev dünyaya gəlmişdir.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

1947-ci ildə N. Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, 1948-ci ildə Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisası üzrə kurs keçmişdir. 1950-1953-cü illərdə aspiranturanı başa vurur. 1960-cı ildən tibb elmləri namizədi, 1977-ci ildən Tibb elmləri doktorudur.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olması qənaətinə gəlmək olur.

Z. Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Z. Əliyeva yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir.

Akademik Zərifə Əliyeva Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqu" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Yüksək elmi nailiyyətlərinə görə 1980-ci ildə Azərbaycan əməkdar elm xadimi, 1981-ci ildə isə SSRİ Tibb Elmlər Akademiyasının M. İ. Averbax adına mükafatına layiq görülmüş ilk qadındır. Zərifə xanım Əliyeva az yaşadı. O, istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi. Ömrünün sonuncu anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

**Abil AĞASƏFOV,**
**YAP Qəbələ Rayon Təşkilatının sədri.**

# Könlüm dilə gəldi elin səsindən, Səs aldım gürşadın selin səsindən

***Xudayar Müslüm oğlu Qurbanov- Azərbaycanın igid oğullarından biri, şəhidlik zirvəsində adı həmişə hörmətlə çəkilən 22 yaşlı bir gənc. Onun haqqında demək olar ki, Azərbaycanın hər bir vətəndaşının məlumatı var, onun “Dastana döndü” zənguləsi, igid döyüşçü kimi tanınması kiçik yaşlı məktəblilərə belə tanışdır. Məhz ona görə oxucularımıza onun tərcümeyi-halını təqdim etmədən sadəcə düşüncələrimdən bir hissəni qısaca təqdim etmək istədim.***

**Görüşə tələsirdim**

Baharın xoş rahiyəsi hər günə gözəllik qatır. Günəş çıxdıqca təbiətin gözəlliyi sanki göz qamaşdırır. Ancaq qəlbinin dərinliyindən göyərən nisgil təzadlı bir şəkildə gözlərinin qəm dastanını bir qalın örtük kimi örtür bu təbii gözəlliyin üzərinə... Nə quşların cəh-cəh səsi, nə güllərin xoş ətri, nə baharın mülayim, xoş havası canına sirayət edir, nə də bahar fəslinin bahar adı yaddaşını təzələyir insanın-Şəhidləri düşünən zaman!

Qəlbi qış, arzuları qar olur şəhid analarının; bacılarının; cavan qəddi elə əyilir ki, şəhid atalarının, qardaşlarının... Gözlərinin önündə təbiətin, baharın bu gözəllikləri deyil, yalnız yurdunun müqəddəs və sitayiş edəcək tərzdə sevdiyi, dövlətinin, yurdunun rəmzi bayrağı canlanır. Onlar üçün təbiət də həmişə bayraq rənglərində, bayraq libasında... Çünki bayraq şəhidinin son libası...

Qulağımda Xudayar zümzüməsi, dostlarının onun səsini dinlədikcə üzündəki ifadəni canlandıracaq halı gözlərimin önündə-Bərdə şəhərinə yol aldım...Xudayarsız Xudayarla görüşə tələsirdim...

Güloğlular kəndində yol aldıqca hər tərəfdən sanki şəhidim canlı şəkildə mənə gülümsəyirdi. Küçə qapısında xüsusi bir güşənin mənzərəsi ilə qarşılaşdım.

**Ev dastana dönmüşdü**

Həyət qapısını açdıqda böyük bir dəhlizlə qarşılaşdım. Dəhlizdə bilirsiniz məni kimlər qarşıladı? Vətən Müharibəsinin 3 min şəhidi! Tək Xudayar yox, 3 min şəhid... Sol divar tamamilə onların şəkilləri idi. Sağ tərəfdə isə 2016-cılin aprel və 2020-ci ilin iyul hadisələrinin şəhidləri... Ayrı-ayrı bölgələrin qrup halında igid oğullarının şəkilləri... Bir anlıq onların qarışıq səsləri beynimi çulğaladı, qəlbim elə ağrındı ki ... Hər birinin böyük bir bayrağa bükülərək son gəlişi, əzizlərinə təqdim olunması... göz önümdə canlandı və əzizlərinin nalə səsləri qulaqlarımda əks-səda etdi...

(Ardı 4-cü səhifədə).